# Dəyanət qalası əzəmətli

# Şuşa

## Azərbaycanın mədəniyyət paytaxtı, zəfərimizin tacı olan bu şəhər beynəlxalq tədbirlər məkanına və diplomatik mərkəzə çevrilib

**Ötən il iyunun 15-də imzalanmış Şuşa Bəyannaməsi Azərbaycan və Türkiyə əlaqələrinin dünəninin, bugününün bütün sahələrini əhatə edərək bu əlaqələri sağlam təməllər üzərində gələcəyə aparan sənəddir. Bəyannamə beynəlxalq hüququn prinsip və normalarına, o cümlədən Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq regional və ümumi miqyasda beynəlxalq sülh, sabitlik və təhlükəsizlik üçün birgə səylərin önəmini əks etdirir. Şuşa Bəyannaməsi Azərbaycan Respublikasının müstəqillik, suverenlik, eyni zamanda beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı və dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutaraq Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin bərqərar olması, möhkəmləndirilməsi üçün siyasi və hüquqi mexanizmləri özündə ehtiva edir.**

Şuşa Bəyannaməsi Azərbaycan və Türkiyə qardaşlığını bütün dünyaya bildirən bir mesajdır. Şuşadan verilən açıqlamalar bütün dünyaya səs saldı və onun böyük əks-sədası davam edir.

Şuşa şəhəri hər zaman Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olmuşdur. Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Bu dəyanətli qala şəhəri, zəfərimizin tacı Şuşa xalqımız üçün müstəsna mənəvi dəyərə malikdir. Azərbaycanın 270 yaşlı mədəniyyət paytaxtı, muğam-sənət beşiyimiz Şuşa şəhəri 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilib.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın baş tacı olan Şuşa şəhərinin 28 il 6 aydan sonra rəşadətli Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə həlledici təsir göstərdi. 2020-ci il noyabrın 8-i Zəfər Günü kimi tariximizə yazıldı. Qeyd etmək lazımdır ki, Azərbaycan xalqının mədəni ənənələrinin simvolu olan Şuşa şəhəri zəngin və şanlı tarixi keçmişə malikdir. Ətrafındakı qədim yaşayış yerləri, o cümlədən məşhur Cıdır düzündəki Şuşa mağarası bu ərazinin Azərbaycanda ən qədim insan düşərgələrindən biri olduğunu sübut edir. Bu baxımdan, nəinki Azərbaycanda, onun hüdudlarından kənarda da Şuşa öz səfalı yerləri, istirahət guşələrinə görə məşhur idi. Şuşa xüsusi gözəlliyi ilə seçilən və dünyanın heç bir yerində bitməyən "Xarıbülbül"ün vətənidir.

Şuşa şəhərinin Azərbaycan üçün müstəsna əhəmiyyət daşıdığını bildirən ölkə başçısı qeyd etmişdir ki, yarıdağılmış tarixi abidələrimizin əsl simasını bərpa etməliyik. Azərbaycan Prezidenti Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan edərək demişdir: "Şuşa şəhəri buna layiqdir. Hesab edirəm ki, nəinki Azərbaycanın, bölgənin mədəni paytaxtı sayıla bilər. Şuşanın mədəni həyatı zəngin olmalıdır".

**(davamı 4-cü səhifədə)**

**Respublika.- 2022- ci il.- 11 iyun.- S. 1.**

# Dəyanət qalası əzəmətli Şuşa




## Azərbaycanın mədəniyyət paytaxtı, zəfərimizin tacı olan bu şəhər beynəlxalq tədbirlər məkanına və diplomatik mərkəzə çevrilib

(əvvəli 1-ci səhifədə)

Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa şəhərini ölkənin mədəniyyət paytaxtı elan etməsi, Vaqif Poeziya Günləri və "Xarıbülbül" festivalının bərpası ölkənin mədəni həyatında əlamətdar hadisələrdir. Cari ilin "Şuşa İli" elan olunması ölkəmiz üçün böyük önəm daşıyır. Şuşa şəhəri, eyni zamanda, bir sıra böyük beynəlxalq mədəni tədbirlərə də uğurla evsahibliyi edir. Bu tədbirlər Azərbaycanın öz zəngin mədəniyyətini dünyanın bütün ölkələrinə nümayiş etdirməsi üçün gözəl şansdır. Həmçinin müxtəlif ölkələrdən gələn mədəniyyət xadimləri Şuşada keçirilən tədbirlərdə iştirak edirlər. Onlar Azərbaycanın zəngin mədəni abidələrə və ənənələrə sahib olduğunun şahidi olurlar.

Şuşa həm də regionun diplomatiya mərkəzinə çevrilir. İşğaldan azad edildikdən dərhal sonra bərpa-quruculuq işlərinə başlanılan tarixi şəhərimiz mədəni tədbirlərlə yanaşı, diplomatik toplantılara da evsahibliyi edir. Bu, ilk növbədə Şuşanın təkcə Azərbaycan üçün deyil, eyni zamanda regional əhəmiyyətindən xəbər verir. "Xarıbülbül" festivalı, Azərbaycan-BMT tərəfdaşlığının 30 illiyinə həsr olunmuş toplantı, Dünya Azərbaycanlılarının V Qurultayı, Milli Məclisin komitə iclasları və ardınca "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" adlı beynəlxalq forumun məhz Qarabağda təşkil olunması Böyük Zəfərin simvolu olan Şuşanın tezliklə Qafqazın siyasi, diplomatik mərkəzi statusuna sahiblənəcəyini göstərir.

ADA Universitetində keçirilən "Cənubi Qafqaz. İnkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransda Azərbaycana 23 ölkədən gəlmiş beynəlxalq beyin mərkəzləri nümayəndələrinin Qarabağa səfəri və Şuşada beynəlxalq konfransa toplaşması olduqca əhəmiyyətli hadisədir. Dünyamiqyaslı, nüfuzlu ekspertlər, tədqiqatçı alimlər, media nümayəndələri azad edilmiş ərazilərimizlə tanış olub həm erməni vəhşiliyini, bununla yanaşı, sürətlə davam edən bərpa-quruculuq prosesini öz gözləri ilə gördülər. Bu, çox önəmlidir. Çünki belə tədbirlər çərçivəsində dünya ictimaiyyəti Azərbaycanın bölgədə yaratdığı yeni reallıqlarla daha aydın tanış olur, Qarabağ və Şərqi Zəngəzurun sıfırdan qurulması prosesini izləyir: "Şuşa Qarabağda vacib beynəlxalq tədbirlərə evsahibliyi edən önəmli bir məkana çevrilib". Bunu Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov Şuşada keçirilən "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" adlı beynəlxalq forumda çıxışı zamanı deyib. O, forumun regionda sülh və sabitliyin möhkəmləndirilməsinə, regionun inkişafına xüsusi töhfə olduğunu vurğulayıb. Önəmli tədbirlərin Şuşada keçirilməsi həm də cənab Prezidentin həyata keçirdiyi uğurlu, qətiyyətli və prinsipial siyasətin göstəricisidir. Heydər Əliyev Fondu və Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə Şuşada müxtəlif ölkələrin kulinarları da bir araya gəliblər. Ləziz təamlar bayramına çevrilən Şuşa Birinci Beynəlxalq Kulinariya Festivalında bu şəhərin qədimliyi, gözəlliyi, Azərbaycan xalqının qonaqpərvərliyi bir daha nümayiş olunub. Festivalda Almaniya, Avstriya, Çin, Fransa, Gürcüstan, İndoneziya, İran, İsrail, İtaliya, Malayziya, Türkiyə və Yaponiyadan kulinarlar qonaqları ölkələrinin təamları ilə tanış ediblər. Tədbirdə Belçika, Birləşmiş Ərəb Əmirlikləri, Fransa, İtaliya, İsrail, Kanada, Koreya, Rusiya, Türkiyə və digər ölkələrdən qida sahəsi üzrə 40 beynəlxalq ekspert, qida üzrə bloqerlər də təmsil olunublar. Şuşada "Postmünaqişədən sonrakı humanitar gündəliyin inkişafı: mədəni mühitin canlandırılması yolu ilə davamlı inkişaf" mövzusunda beynəlxalq konfrans da uğurla təşkil olunub. Konfransda çıxış edən mədəniyyət naziri Anar Kərimov bildirib ki, tədbirdə iştirak edən xarici qonaqlarda sual yarana bilər, nəyə görə Şuşa bizim üçün bu qədər önəmlidir? Ona görə ki, Şuşa Azərbaycan mədəniyyətinin özüdür, zənginliyidir və irsimizdir. Bu şəhərin hər daşı bizim üçün o qədər əzizdir ki, hətta Vətən müharibəsi zamanı bizim igid Ordumuz yalnız yüngül silahlardan istifadə edərək tarixi abidələrimizə zərər yetirməməyə çalışdı. Bu gün Prezident İlham Əliyevin təsdiqlədiyi plan əsasında Şuşada çox böyük yenidənqurma işləri həyata keçirilir. Şəhərdə infrastrukturun yenidən qurulmasına çox böyük diqqət yetirilir. Burada sosial infrastrukturun inşasına başlanılıb. Bu yenidənqurma işləri vaxtilə Şuşadan didərgin düşən həmvətənlərimizin tam rahat şəkildə doğma ocaqlarına qayıtmalarına şərait yaradacaq. Beynəlxalq konfransda TÜRKSOY-un Baş katibi, ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Baş katibi Bağdad Amreyev, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, Mədəni Mülkiyyətlərin Qorunması və Bərpasının Öyrənilməsi üzrə Beynəlxalq Mərkəzin (İCCROM) Baş direktoru Ebber Ndoro və digər qonaqlar çıxış ediblər.

Dünya Azərbaycanlılarının V Qurultayının 30 illik işğaldan sonra məhz Qarabağda, Azərbaycanın və Türk Dünyasının mədəniyyət paytaxtı Şuşada təşkil olunmasının çox böyük ictimai-siyasi, mənəvi əhəmiyyəti var. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin iştirakı ilə Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər Qurultayı çağdaş tariximizin ən şanlı səhifələrindəndir. Müzakirələr nəticəsində qurultayın qətnaməsi, Dünya Azərbaycanlılarının V Qurultayı nümayəndələrinin dünya azərbaycanlılarına müraciəti, Dünya Azərbaycanlılarının V Qurultayının BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatına (UNESCO) və BMT-nin Ətraf Mühit Proqramına (UNEP) müraciəti, Dünya Azərbaycanlılarının V Qurultayının Azərbaycanın Ermənistanın işğalından azad olunmuş ərazilərində yaratdığı mina problemi ilə bağlı beynəlxalq ictimaiyyətə müraciəti yekdilliklə qəbul edilib.

Daha bir mötəbər tədbiri də vurğulamaq lazımdır. Belə ki, İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin parlament rəhbərləri Şuşaya səfər ediblər. İƏT PA-nın iclası ilk dəfə Azərbaycanda keçirilib. İclas Türkiyə, İran, Qazaxıstan, Özbəkistan, Əfqanıstan, Türkmənistan, Tacikistan, Qırğızıstan parlament nümayəndə heyətinin iştirakı ilə baş tutub. Şuşanın mühüm tədbirlərə möhtəşəm evsahibliyi missiyası davam edir.

**Mustafa KAMAL,**
**"Respublika".**